**XƏZƏR UNİVERSİTETİ**
**SUMQAYIT DÜNYA MƏKTƏBİ**

**Sumqayıt, AZ 5000, Bakı küçəsi 37, 44-cü məhəllə**
**Tel: (994 18) 642 30 97     Mob.: (070) 729 25 81/ 82**
**www.dunyaschool.edu.az          e-mail: sumgait@dunyaschool.edu.az**

# M Ü Q A V İ L Ə   №______

ödənişli təhsil xidmətlərinin göstərilməsi haqqında

Bakı şəhəri                                                                                     “___”___________  ____-ci il

Bundan sonra “Məktəb” adlandırılacaq 5 iyul 2016-cı il tarixli, 089584 saylı lisenziya əsasında fəaliyyət göstərən tam orta ümumtəhsil məktəbi “Xəzər” Universiteti Dünya məktəbi” MMC direktor Bayramova Nazpəri Zəhman qızının şəxsində bir tərəfdən, “Valideyn” (“Qəyyum” və ya “Himayəçi”) adlandırılacaq Azərbaycan Respublikasının vətəndaşı________________________________________şəxsində (Ş/V: seriya AZE №____________, ______________tərəfindən ______-cı ildə verilib) digər tərəfdən aşağıdakı şərtlər əsasında bu müqaviləni bağladılar.

## 1. MÜQAVİLƏNİN PREDMETİ

1.1. “Məktəb” ödənişli əsaslarla müvafiq təhsil proqramlarına və bu müqavilənin şərtlərinə uyğun olaraq aşağıda göstərilmiş şagirdə tam orta təhsil verməyi, “Valideyn” isə məktəbin müəyyənləşdirdiyi bu müqavilənin 1.2-ci bəndində qeyd olunan qiymətlər üzrə təhsil haqqını, təhsil haqqı artımlarını məktəbə ödəməyi və digər xərclərin ödənilməsini təmin etməyi öhdələrinə götürürlər:

**Məktəbəqədər hazırlıq sinifləri** _________________________________ Az.Rus.İngilis bölmələri
Şagirdin adı, soyadı, atasının adı

**I-IV** siniflər ________________________________________________Az.Rus.İngilis bölmələri
Şagirdin adı, soyadı, atasının adı və sinfi

**V-XI** siniflər ________________________________________________Azərbaycan və Rus bölmələri
Şagirdin adı, soyadı, atasının adı və sinfi

1.2. ______/______ tədris ili üçün illik təhsil haqqı ___________________________________________ təşkil edir.

## 2. “MƏKTƏB”İN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**Vəzifələr:**
2.1. Şagirdlərin təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək
2.2. İbtidai sinif şagirdlərini gün ərzində səhər yeməyi, günorta isti naharla və günün ikinci yarısı qəlyanaltı ilə  təmin etmək
2.3. V-XI sinif şagirdlərini səhər çay saatı, günorta isə isti naharla təmin etmək
2.4.Valideynləri müntəzəm olaraq şagirdlərin nizam-intizam və tədris fəaliyyəti barədə məlumatlandırmaq
2.5.  Şagirdlərə psixoloq dəstəyini (lazım gələrsə) təşkil etmək
2.6. Şagirdlərin sağlamlığı ilə əlaqədar profilaktik tədbirləri həyata keçirmək

**Hüquqlar:**

2.7. “Valideyn”in (qəyyum və himayəçinin) razılığı əsasında şagird “Məktəb” tərəfindən sınaq müddətinə qəbul edilərsə, sınaq müddəti bitdikdə məktəb rəhbərliyi şagirdin bilik və davranış göstəricilərini əsas götürərək şagirdi məktəbdə saxlayıb-saxlamamaq hüququna malikdir.
2.8. “Məktəb”in nizam-intizam qaydalarına əməl etməyən və akademik tələbatı ödəyə bilməyən şagirdi məktəbdən xaric etmək
2.9. “Məktəb”in xərcləri artdığı təqdirdə (o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, manatın digər valyutalara nisbətən dəyərsizləşməsi, məktəbin işçi heyətinin əmək haqqının artırılması, kommunal - elektrik, qaz, su, rabitə xərclərinin artması, ərzaq məhsullarının qiymətlərinin artması və s.) növbəti tədris illərində məktəb təhsil haqqını artırmaq hüququna malikdir. “Valideyn” bu kimi dəyişikliklərə əvvəlcədən razılığını verir. Bu kimi dəyişikliklər barədə “Məktəb” “Valideyn”ə məlumat verəcəyini və Valideyn təhsil haqqının “Məktəb”in hesabına vaxtında köçürülməsini öhdəsinə götürür.
2.10. “Valideyn” (qəyyum və ya himayəçi) bu müqavilənin 2.9-cu maddəsinə əsasən təhsil haqqının dəyişdirilməsinə (artırılmasına) etiraz edərsə, müqavilə məktəb tərəfindən birtərəfli qaydada məhkəməyə müraciət edilmədən ləğv edilir və şagird növbəti tədris ilində təhsil almaq hüququnu itirir.
2.11. “Valideyn” (qəyyum və ya himayəçi) tərəfindən təhsil haqqı vaxtında ödənilmədikdə, şagirdi dərslərə, imtahanlara buraxmamaq və ya məktəbdən xaric olmaq istərkən sənədlərini verməmək hüququnu məktəb öz üzərində saxlayır.

## 3. “VALİDEYN”İN (Qəyyum və ya Himayəçinin) HÜQUQ VƏ VƏZİFƏLƏRİ

**Hüquqlar:**
3.1 Tədris prosesinin müəyyən olunmuş standartlara uyğun təşkil olunmasını müşahidə etmək (hər ayın birinci həftəsi məktəbin rəhbərliyinin icazəsinə əsasən valideyn dərslərdə iştirak edə bilər)
3.2. “Məktəb”də təhsil alan şagirdi bir bölmədən başqa bölməyə keçirmək üçün məktəbə müraciət etmək Bunun üçün şagird mütləq hazırlıq kursu keçməlidir. Kursun sonunda keçirilən imtahan nəticələri yüksək olarsa, şagird yeni bölmədə təhsilini davam etdirə bilər.
**Vəzifələr:**
3.3.”Məktəb” rəhbərliyinin icazəsi olmadan tədris prosesinə müdaxilə etməmək
3.4. Şagirdin məktəbə gecikməməsini və vahid məktəbli formasında gəlməsini təmin etmək. Şagirdin müəyyən səbəblərdən dərslərdə iştirak edə bilməməsi barədə dərhal məktəbə məlumat vermək
3.5. Təhsil haqqını müqavilədə qeyd olunmuş qaydalar əsasında ödəmək
3.6. Müqavilədə qeyd olunmayan, lakin şagirdlərin marağına və mənafeyinə uyğun gələn məsələlərin həlli üçün əlavə ödənişi təmin etmək (məsələn: xarici ölkələrdə dil kursları, xarici ölkələrə səfərlər və s. üçün ödənişlərin edilməsi)
3.7. Şagird tərəfindən məktəbə maddi ziyan vurularsa, bu maddi ziyana görə cavabdeh olmaq və ödəniş etmək
3.8. Məktəbdaxili nizam-intizam qaydalarına əməl etmək
3.9. Pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq
3.10. “Məktəb”in nizamnaməsinin və daxili qaydalarının tələblərinə riayət etmək
3.11. Təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək.

## 4. TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİ QAYDALARI

4.1.Məktəbdə hazırda təhsil alan şagirdlər üçün illik təhsil haqqının məbləği aşağıdakı kimi müəyyən edilir:
Məktəbəqədər hazırlıq sinifi- 3200 (üç min iki yüz) manat
I – IV siniflər (Az.və rus böl.) – 5000 (beş min) manat, (İngilis böl.)- 6000 (altı min) manat
V-IX siniflər (Az. və rus böl.) - 6000 (altı min) manat, (İngilis böl.)- 8000 (səkkiz min) manat
X-XI siniflər (Az. Və rus böl.) -6500 (altı min beş yüz), (İngilis böl.)-9000 (doqquz min) manat

4.2.Bu müqavilənin 4.1-ci bəndində göstərilən illik təhsil haqqı məbləğləri müqavilənin 2.9-cu bədinə uyğun olaraq məktəb tərəfindən dəyişdirilə bilər.

4.3.Bu müqavilənin 4.1-ci bəndində göstərilən təhsil haqqına məktəbli forması, dərs vəsaitləri, nəqliyyat, dərnəklərin xərcləri daxil deyildir. Bu xərclər valideyn tərəfindən əlavə olaraq ödənilir.
4.4. Hər dərs ilinin sonu şagird növbəti dərs ili üçün qeydiyyatdan keçməlidir.
4.5. I yarımil üçün təhsil haqqının 20%-nin ödəniş tarixi: 15 may-15 avqust tarixləri müddətində, digər 30%-i 1 sentyabr-30 dekabr tarixləri müddətində.
4.6. II yarımil üçün təhsil haqqının növbəti 50%-i 15 yanvar-30 mart tarixləri müddətində.
4.7. Nəzərdə tutulan məbləğ ödənildikdən sonra şagirdin təhsil alma qeydiyyatı təsdiqlənir. Qeyd edilən müddətdə ödəniş həyata keçirilmirsə, şagirdin adı məktəbin şagird kontingenti siyahısına daxil edilmir.

4.8. Şagird məktəbə I (birinci) yarımil ərzində qəbul edilərsə, gəlmədiyi aylar çıxılmaq şərti ilə hesablanmış ümumi təhsil haqqı ödənişinin 50%-i 1 (bir) iş günü ərzində, digər 50%-i isə 15 yanvar-30 mart tarixinə qədər ödənilir. Şagird məktəbə II (ikinci) yarımildə qəbul edilərsə, ümumi təhsil haqqı ödənişindən təhsil almadığı ayların ödənişi çıxılmaq şərti ilə 1 (bir) iş günü ərzində ödəniləcək məbləğ tam ödənilməlidir.
**4.9. Şagird müəyyən səbəblərə görə (üzrlü və ya üzrsüz) dərslərdə iştirak etmirsə, bu müddət üçün təhsil haqqı ödənilməlidir və ya ödənilmişdirsə, geri qaytarılmır.**
4.10. Əgər məktəbə eyni ailədən iki, üç və s. sayda uşaq qəbul olunarsa, ikinci və digər uşaqlara **illik təhsil haqqından 500 manat güzəşt olunur** (ailənin hər uşağına).
4.11. Məktəbdə təhsil alan şagird ödənişli nəqliyyat servisindən istifadə etmək istəyirsə, nəqliyyat xidməti ofisi ilə əlaqə yaradılır və ödəniş servisin ofisində həyata keçirilir.
4.12. **Şagirdin müəyyən səbəblərə görə (üzrlü və ya üzrsüz) təhsilini davam etdirməsi mümkün olmadıqda, valideyn dərhal məktəbə bu barədə məlumat verməlidir. Belə halda qabaqcadan ödənilmiş təhsil haqqından məktəbdən azad olunma əmri verilən tarixədək əvvəlcədən ödənilmiş məbləğdən tələb olunan təhsil haqqı çıxılır və qalan hissə valideynin (himayəçinin) müraciətinə əsasən geri qaytarılır. (Bu o deməkdir ki, misal olaraq, 3 mart tarixində şagirdin azad olunma əmri verilmişsə, 3 mart tarixinədək tələb olunan təhsil haqqı əvvəlcədən ödənilmiş məbləğdən çıxılır, qalan məbləğ geri qaytarılır)**
4.13. Təhsil haqqında müəyyən hallar üçün güzəştlər nəzərdə tutulmuşdur.

| *N* | ***Təhsil haqqına güzəşt halları*** | ***Güzəşt % və AZN ilə*** |
|---|---|---|
| *1* | *Aztəminatlı ailələrdən olan istedadlı şagirdlərə məktəbin müvafiq komissiyasinin yazılı rəyi əsasında (Respublika və beynəlxalq olimpiada, layihə qalibləri VI və XI siniflər üzrə )* | ***20%*** |
| *2* | *Qarabağ müharibəsi veteranları və şəhidlərin övladlarına (qəbul imtahanında yüksək nəticə göstərərsə və təhsil aldığı illərdə bütün fənlərin nəticələri əla olarsa)* | ***20%*** |
| *3* | *Xəzər universiteti və Dünya məktəbində çalışan müəllim və işçilərin övladlarına (ailədən yalnız 1 şagirdə)* | ***20%*** |
| *4* | *Bir ailədən 2, 3 və s. şagird məktəbdə təhsil alarsa, II şagirddən başlayaraq hər birinə güzəşt edilir* | ***500 AZN*** |

## 5. FORS-MAJOR (QARŞISIALINMAZ HADİSƏ)

5.1. Qarşısıalınmaz qüvvənin təsirinə tərəflərin nəzarət edə bilmədikləri, onların səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr aid edilir. Bunlara müharibələr və ya inqilablar, daşqınlar, epidemiyalar, epizotiyalar, karantinlər, embarqolar, müvafiq qanunvericilik qərarları, dövlət orqanlarının qərarları və digər hallar aiddir.
5.2. Qarşısıalınmaz hallara istinad edən tərəf:
5.2.1. Qeyd olunan halların yarandığı vaxtdan 10 təqvim günü müddətində digər tərəfi məsələ ilə yazılı şəkildə xəbərdar edir.

5.2.2. Həmin hallar aradan qaldırıldıqda, dərhal bu barədə digər tərəfi yazılı surətdə məlumatlandırmalıdır. Bu zaman Müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsi müddəti qeyd olunmalıdır. Məlumatın göndərilmədiyi və ya vaxtında göndərilmədiyi təqdirdə, məlumatı təqdim etməyən və ya vaxtında təqdim etməyən tərəf müvafiq xərcləri ödəməlidir;
5.3. Bu Müqavilə üzrə öhdəliklərin yerinə yetirilmə müddəti qarşısıalınmaz halların mövcud olduğu müddətə uzadılır. Qarşısıalınmaz hallar 2 (iki) aydan çox davam edərsə, istənilən tərəf bu Müqaviləni məhkəməyə müraciət etmədən, digər tərəfi bu Müqavilənin şərtlərinə müvafiq olaraq məlumatlandıraraq ləğv edə bilər.
5.4.Qarşısıalınmaz hallar baş verdikdə məktəb alternativ olaraq onlayn dərslər təklif edir.Onlayn dərslər zamanı məktəb illik dərs cədvəlinə uyğun dərslər təşkil edir.Onlayn dərslər qarşısıalınmaz qüvvənin davam etdiyi müddətdə tədris edilir və bu müddət üçün təhsil haqqına yalnız qidalanma xərcləri məbləğində güzəşt tətbiq olunur.

## 6. MÜQAVİLƏNİN MÜDDƏTİ

6.1. Bu müqavilə imzalandığı andan qüvvəyə minir və 1 il (bir il) müddətinə qüvvədədir.
6.2. Bu Müqavilənin 2.9. maddəsinə uyğun təhsil haqqı artacağı təqdirdə tərəflər yeni müqavilə imzalamalıdırlar.

## 7. MÜQAVİLƏNİN LƏĞV EDİLMƏSİ QAYDALARI

7.1. Bu müqavilə tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər.
7.2. "Məktəb" aşağıdakı hallarda birtərəfli qaydada məhkəməyə müraciət etmədən bu Müqaviləyə xitam verə bilər:
7.2.1. "Valideyn" (qəyyum və ya himayəçi) təhsil haqqı və digər xərclər ödəmədikdə
7.2.2. "Valideyn" (qəyyum və ya himayəçi) və ya şagird pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmadıqda
7.2.3. Şagird "Məktəb"in nizamnaməsinin və daxili qaydalarının tələblərinə riayət etmədikdə
7.2.4. "Valideyn" (qəyyum və ya himayəçi) və ya şagird təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmədikdə
7.3. Tərəflərdən biri bu müqaviləni birtərəfli qaydada ləğv edərsə, digər tərəfə 7 (yeddi) iş günü müddətndə yazılı məlumat verməlidir.
7.4. Bu müqavilədə göstərilən əsaslarla məktəb bu müqaviləyə xitam verdikdə, ödənilmiş təhsil haqqı və digər xərclər qaytarılmır.

## 8. MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ

8.1. Tərəflər bu Müqavilə üzrə öz aralarında yaranmış mübahisəli məsələləri danışıqlar və qarşılıqlı güzəştlər yolu ilə həll etməlidirlər.
8.2. Mübahisəli məsələlərin həlli danışıqlar yolu ilə mümkün olmadıqda, bu məsələlər Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə əsasən məhkəmə qaydasında həll edilməlidir.

## 9. TƏRƏFLƏRİN MƏSULİYYƏTİ

9.1. Tərəflər bu Müqavilə üzrə öhdəliklərini yerinə yetirmədikdə və ya lazımi səviyyədə yerinə yetirmədikdə, onlar Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 10. DİGƏR ŞƏRTLƏR

10.1. Tərəflər qarşılıqlı razılıq əsasında bu Müqaviləyə müvafiq əlavələr və dəyişikliklər edə bilərlər. Həmin əlavə və dəyişikliklər bu Müqavilənin ayrılmaz hissəsi hesab olunur.
10.2. Bu Müqavilə Azərbaycan dilində iki nüsxədə tərtib olunmuşdur. Bir nüsxəsi "Valideyn"də (qəyyum və ya himayəçidə), digər nüsxəsi isə "Məktəb"də saxlanılır və hər ikisi eyni hüquqi qüvvəyə malikdir.

## 11. TƏRƏFLƏRİN ÜNVANLARI VƏ İMZALARI

**"Xəzər Universiteti Dünya məktəbi" Sumqayıt filialı**

AZ1130 Azərbaycan,
Sumqayıt şəhəri,44 məhəllə
Tel.: 018-642-30-97
Mob: 070-729-25-81/82
Adı: Xəzər Universiteti "Sumqayıt Dünya məktəbi" MMC
IBAN: AZ26AIIB40060019440019346125
VÖEN: 1601290471
Kapital Bank ASC Sumqayıt filialı
KOD : 200253
VÖEN 9900003611
M|h:AZ37NABZ01350100000000001944
SWİFT: AIIBAZ2X

Direktor:
Nazpəri Bayramova

İmza: ________________________

**"Valideyn" (qəyyum və ya himayəçi)**

Adı, soyadı ____________________
______________________________
Ünvan: ______________________
______________________________

Telefon:
Ev: ___________________________
Mob: _________________________

Müqavilənin hər bir bəndini oxudum, razıyam və imzamla təsdiq edirəm.

İmza: ________________________